Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Sentyabr 2022

www.ereforms.gov.az
info@ereforms.gov.az

**Zəngəzur dəhlizi açıldıqdan sonra bu, region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq.**

2020-ci ilin sonunda Qarabağ münaqişəsinin həlli regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaradıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bu, region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq və marşrut boyu yerləşən bütün ölkələr üçün faydalı olacaqdır.




**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 2022-ci il 18 sentyabr tarixində Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində nitqindən**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi səh. 15

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat səh. 18

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat səh. 20

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat səh. 22

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat səh. 25

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2022-ci ilin yanvar-avqust ayları ərzində 26,2 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-avqust aylarında qeyri-neft sektoru üzrə ixrac 1,9 milyard ABŞ dolları təşkil etmişdir

2022-ci ilin yanvar-avqust aylarında Azərbaycanın ümumi ixracı **26,2 milyard ABŞ dolları**, qeyri-neft sektoru üzrə ixrac **1,9 milyard ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci ilin ilk səkkiz ayı ilə müqayisədə **19% artıb**.

2022-ci ilin yanvar - avqust ayları ərzində kimya sənayesi məhsullarının ixracı 3 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 66%, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 21,1% artmışdır.

Aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri **537,8 milyon ABŞ dolları** təşkil etmişdir. 2022-ci ilin yanvar-avqust ayları ərzində ixrac edilən meyvə-tərəvəz məhsulları aqrar məhsullar qrupunun 93,2%-ini təşkil etmişdir. 2022-ci ilin müvafiq dövrü ərzində yeməli-meyvələr və qoz-fındığın ixracı 25,1% artaraq 227,7 milyon ABŞ dolları,



tərəvəz ixracı isə 180,5 milyon ABŞ dolları təşkil etmişdir. Aqrar məhsullar strukturunda 3,4%-lik paya malik tütün və tütünün sənaye əvəzediciləri ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,7 dəfə artaraq 15 milyon ABŞ dolları təşkil etmişdir.

Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı əlavə dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 9% artmışdır. Aqrar-sənaye məhsullarının strukturunda 8,6%-lik paya malik çay ixracı 53,9% artaraq 8,5 milyon ABŞ dolları təşkil etmişdir. Habelə, sözügedən sənaye məhsullarının hərəkətverici qüvvəsi hesab edilən bitki və heyvan mənşəli piylər və yağlar 8,4% artaraq 20,9 milyon ABŞ dolları səviyyəsinə çatmışdır.

2022-ci ilin yanvar-avqust ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (143,4 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda karbamid (142,2 milyon ABŞ dolları) ikinci, tomat (pomidor) (134,2 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2022-ci ilin yanvar-avqust ayları ərzində Rusiya Federasiyasına 527,6 milyon ABŞ dolları, Türkiyəyə 491,1 milyon ABŞ dolları, Gürcüstana 126,9 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 117,7 milyon ABŞ dolları və ABŞ-a isə 60,1 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2022-ci ilin avqust ayı üzrə ixrac 3,7 milyard ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac isə 204 milyon ABŞ dolları olub. 2022-ci ilin avqust ayı ərzində yeyinti məhsulları üzrə ixrac 21,5% artaraq 46,6 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 157,4 milyon ABŞ dolları təşkil edib.

2022-ci ilin avqust ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (65,5 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (28,9 milyon ABŞ dolları) ikinci və Gürcüstan (19,3 milyon ABŞ dolları) üçüncü olub.

2022-ci ilin avqust ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında karbamid (20,3 milyon ABŞ dolları) birinci, qızıl (16,1 milyon ABŞ dolları) ikinci və şaftalı (12,3 milyon ABŞ dolları) üçüncü olub.



# 2022-Cİ İLİN YANVAR-AVQUST AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN AVQUST AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN AVQUST AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2022 İXRAC İCMALI sentyabr



# 2022-Cİ İLİN YANVAR-AVQUST AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR SƏNAYE MƏHSULLARININ İXRACI

(2021-ci ilin müvafiq dövrü ilə müqayisə ilə, faizlə)

2022 İXRAC İCMALI sentyabr

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**537,8 mln $**

2021/2022 **+13,12%**



2021/2022 **+14,1%**

**438 mln $**

**99,8 mln $**

2021/2022 **+9%**

# 2022-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2022-Cİ İLİN AVQUST AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI sentyabr

| | 2022 | 2021 |
|---|---|---|
| Pambıq mahlıcı | 143,4 | 143,8 |
| Karbamid | 142,2 | 31,4 |
| Tomat (pomidor) | 134,2 | 128,2 |
| Qızıl | 109,8 | 140,1 |
| Metanol (metil spirti) | 92,5 | 33 |
| İlkin formalı polipropilen | 64,3 | 75,9 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 61,5 | 66 |
| Meşə fındığı | 61,1 | 44,1 |
| Emal olunmamış aluminium ərintiləri | 51,8 | 19,9 |

# 2022-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI sentyabr

| | 2022 | 2021 |
|---|---|---|
| Digər yağlar və məhsullar | 47,8 | 39 |
| Polimerləşmədə ilkin formalı maddələr | 44,2 | 45,5 |
| Albalı və gilas | 41,6 | 31,1 |
| Alüminium ərintilərindən plitələr | 40,6 | 32,1 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 40,2 | 38,9 |
| Elektrik enerjisi | 36,3 | 35,2 |
| Aşqarlanmamış alüminiumdan plitələr | 35,7 | 25,2 |
| Kartof | 35,1 | 40 |
| Xurma | 29,7 | 31,9 |

# 2022-Cİ İLİN AVQUST AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| Karbamid | 20,3 | 11 |
| Qızıl | 16,1 | 23,4 |
| Şaftalı | 12,3 | 10,8 |
| Metanol (metil spirti) | 11,2 | 9,7 |
| Digər yağlar və məhsullar | 10,3 | 4,7 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 10 | 6,8 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 8,1 | 7 |
| 5 PP İlkin formalı polipropilen | 7,4 | 9 |
| Aşqarlanmamış poladdan isti yayılmış digər burulmuş çubuqlar | 5,9 | 7,3 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2022-ci ilin yanvar-avqust ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "STP Alüminium" MMC,"Baku Steel Company" MMC, "P-Aqro" MMC, "Almeyvə" MMC, Şirinov Elvin Valeh oğlu, "Mors Trading" MMC, "Rose Servis" MMC, "Şimal AqroPark" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Geofizika və Geologiya İdarəsi", Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2022-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022
İXRAC İCMALI
sentyabr



# 2022-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI sentyabr



3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin yanvar-avqust aylarında "Azərkosmos" ASC 17,2 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2022-ci ilin yanvar-avqust aylarında "Azərkosmos" tərəfindən dünyanın 36 ölkəsinə **17,2 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos"-un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **83** faizini təşkil edib. 2022-ci ilin avqust ayında isə "Azərkosmos" dünyanın 33 ölkəsinə **2,1 milyon ABŞ** dolları dəyərində xidmət ixrac edib.

2022-ci ilin yanvar-avqust ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə **4,4 milyon ABŞ dolları** ilə Birləşmiş Krallıq, **3,5 milyon ABŞ dolları** ilə Fransa, **2,9 milyon ABŞ dolları** ilə Lüksemburq, **1,6 milyon ABŞ dolları** ilə BƏƏ və **956,7 min ABŞ dolları** ilə Pakistan qərarlaşıb.

# 2022-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA "AZƏRKOSMOS" 17,2 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| Məbləğ | Ölkə |
|---|---|
| 4,4 mln $ | Birləşmiş Krallıq |
| 3,5 mln $ | Fransa |
| 2,9 mln $ | Lüksemburq |
| 1,6 mln $ | BƏƏ |
| 956,7 min $ | Pakistan |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin yanvar-avqust ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 1,5 milyard manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2022-ci ilin avqust ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **214,6 milyon manat** təşkil edib. 2022-ci ilin yanvar-avqust aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **1,5 milyard manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR

(milyon manatla)

| | 2020 | 2021* | 2022 |
|---|---|---|---|
| Yanvar | 85,2 | 72,2 | 204,7 |
| Fevral | 72,9 | 112,2 | 186,5 |
| Mart | 53,9 | 93,2 | 158,5 |
| Aprel | 19,7 | 64,1 | 136,6 |
| May | 24,3 | 81,3 | 184,1 |
| İyun | 23,7 | 89,7 | 203,6 |
| İyul | 23 | 96 | 213,6 |
| Avqust | 25,6 | 105,3 | 214,6 |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **328,3 mln** | **714 mln** | **1,5 mlrd** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT

## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 3 milyard 12 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin avqust ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **32,8 milyon ABŞ dolları** təşkil edib.

2022-ci ilin yanvar-avqust aylarında Azexport.az portalına **321,2 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2022-ci ilin avqust ayında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə **32,8 milyon ABŞ dolları** təşkil edib. 2022-ci ilin avqust ayında Azexport.az portalına edilən ixrac sifarişlərinin alma, xurma, pambıq yağı, fındıq ləpəsi, günəbaxan yağı, un, qarğıdalı yağı, tütün, tibbi tənzif, fındıq qabığı və s. məhsullar üstünlük təşkil edib.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2022-ci ilin 31 avqust tarixinə kimi (68 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **3,012 milyard ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ

(milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI sentyabr









# 2022-Cİ İLİN AVQUST AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

AZEXPORT.AZ
Made in Azerbaijan

- Alma
- Xurma
- Un
- Tibbi tənzif
- Pambıq yağı
- Fındıq ləpəsi
- Tütün
- Günəbaxan yağı

6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin sentyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 24,7 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2022-ci ilin sentyabr ayı ərzində **145 müraciət** daxil olub. Müvafiq dövr ərzində **304 ədəd sertifikat** (134 ədəd mənşə, 10 ədəd baytarlıq, 146 ədəd fitosanitar, 14 ədəd CİTES) təqdim edilib.

2022-ci ilin sentyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **24,7 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pendir, kərə yağı, mineral su, limonad, nar, heyva, alma, qarışıq şirələr, narşərab, nar çaxırı,iribuynuzlu heyvanların dondurulmuş qarnı, iribuynuzlu heyvanların emal olunmamış gönlərin kəsikləri, təmizlənmiş duzlanmış qoyun bağırsağı, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, biyan kökü, tibbi zəli, yeşiklərdə fermentləşdirilmiş qara çay, siqaret, kompost, katod bloku tullantısı, PVB qırıntıları, səki daşları və bordür, yastıq, taxta palet, dəmiryol avadanlıqları, polad boru, polad armatur yayması, Dağıstan turunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, polad boru, süd məhsulları, meyvə şirələri və limonadın ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Türkiyə, ABŞ, Gürcüstan, Rusiya, Ruminiya, Qazaxıstan, Özbəkistan, İtaliya, Serbiya, Belarus, İran, İraq, Çin, İsrail, Malayziya, Yeni Zelandiya, Sinqapur, Bolqarıstan, Tatarıstan üstünlük təşkil etmişdir.



# 2022-Cİ İLİN SENTYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI sentyabr



# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR
(faizlə)

**46,2%**
Fitosanitar sertifikatı

**45,5%**
Mənşə sertifikatı

**4,9%**
CITES sertifikatı

**3,5%**
Baytarlıq sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az


www.ereforms.gov.az

/iqtisadiislahat